# Azərbaycanın qaldırdığı məsələlər qlobal gündəmin formalaşmasına təsir edir

"Yeni Kaledoniya ilə Fransa arasında əldə olunan son razılaşma layihələri və bu istiqamətdə atılan addımlar uzun illərdir müstəmləkəçilik əsarətində yaşamış kanak və digər yerli xalqların yeni tarixinin başlanğıcı olmaqla yanaşı, həm də bəzi önəmli amilləri özündə ehtiva edir. Uzun illərdir ki, müstəmləkəçilikdən əziyyət çəkən millətlərin üzləşdiyi çətinliklər Fransa kimi digər Qərb dairələrinin də diqqətindən kənarda qalır, məsələlərə əksər hallarda biganə yanaşılır, həmin xalqların haqq səsi batırılırdı". Bu sözləri AZƏRTAC-a açıqlamasında politoloq Ülviyyə Zülfiqar söyləyib.



O bildirib ki, Azərbaycan qlobal platformalarda unudulmaqda olan, görməzdən gəlinən bu haqsızlıqları dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Prezident İlham Əliyevin COP29-un açılışındakı çıxışında müstəmləkəçilik və hələ də müstəmləkə əsarətində qalan xalqların problemlərinə birbaşa toxunması bu məsələlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında mühüm rol oynadı. Azərbaycan bu addımı ilə yalnız regionda deyil, qlobal miqyasda da ədalət və bərabər hüquqlar uğrunda çıxış edən dövlət mövqeyi sərgilədi. Ölkəmiz nümayiş etdirdi ki, qlobal miqyasda hər zaman haqlı olanın, haqlı olsa da, zəif olduğu üçün əzilənin və ədalətin tərəfindədir.

"Azərbaycanın təşəbbüsləri və qabartdığı problemlərdən dolayı beynəlxalq ictimaiyyətdə formalaşan təzyiqlər Fransa rəhbərliyini məsələyə diqqət ayırmağa vadar etdi. Prezident Emmanuel Makronun Yeni Kaledoniya ilə danışıqlarda kompromisə hazır olmaqla bağlı mövqe nümayiş etdirməsi, nəticə etibarilə əldə edilən razılaşmaları Azərbaycanın bu istiqamətdəki fəaliyyətinin nəticəsi, yeni uğuru kimi qiymətləndirmək olar.

Bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan təkcə regionda deyil, beynəlxalq miqyasda da söz sahibidir. Azərbaycanın qaldırdığı məsələlər qlobal gündəmin formalaşmasına təsir göstərir və müstəmləkəçilik kimi həssas, ədalət tələb edən mövzulara dünya miqyasında diqqətin artmasına, real nəticələrin əldə olunmasına zəmin yaradır. Bu da Azərbaycanın beynəlxalq aləmdə artan diplomatik çəkisini və həlledici gücünü nümayiş etdirən mühüm nümunədir", - deyə Ü. Zülfiqar söyləyib.

Azərbaycan.-2025.- 16 iyul (№ 144).- S.9.